# Rayonumuzda Koreya Kinosu Festivalı keçirilir



Azərbaycan Mədəniyyət fondu, SEBA (Seul—Bakı) Azərbaycan—Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası, Koreya Fondunun təşkilatçılığı və Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin dəstəyi ilə 2015-ci ilin 6 iyul—15 avqust tarixləri arasında «Azərbaycanda Koreya Kinosu Festivalı» keçirilir.



Festivalda nümayiş olunacaq Koreya filmlərinin ölkəmizin 5 regionunda tamaşaçılara təqdim olunması nəzərdə tutulmuşdu. İyul ayının 6-dan avqust ayının 6-na qədər Gəncə, Lənkəran, Sumqayıt və Ağdaş şəhərlərində Koreya kinoları nümayiş olunub. Avqust ayının 7-də festivalın Qəbələ mərhələsi başlayıb. Bu festival Azərbaycan tamaşaçısına Koreya mədəniyyəti və insanları ilə daha yaxından tanış olma və onları daha yaxşı anlama imkanı yaradır. «Azərbaycanda Koreya Kinosu Festivalı»nda nümayiş olunan on Koreya filmi SEBA Assosiasiyasının dəstəyi ilə ilk dəfə olaraq Azərbaycan dilinə dublyaj olunub.

Festivalın açılış mərasimi Qəbələ Mədəniyyət Mərkəzində baş tutub. Mərasimdə Qəbələ rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin müşavir elçisi xanım Ça Çanq Sun və SEBA Assosiasiyasının Beynəlxalq Əlaqələr və Tədris Şöbəsinin müdiri xanım İradə Nəcəfova çıxış edərək bu Festivalın böyük əhəmiyyət daşıdığını, o cümlədən festivalın proqramı, təqdim olunan filmlər, kino sahəsində qazanılan uğurlar, qarşıda duran vəzifələr barədə məlumat verərək bu mövzunun hər zaman aktual olacağını bildiriblər.

Çıxışlardan sonra tamaşaçılara 2011-ci ildə rejissor Çoi İk Hvan tərəfindən lentə alınmış «Ana» filmi təqdim olunub.

Festival öz işini 8—15 avqust tarixləri arasında Qəbələ Mədəniyyət Mərkəzi və Heydər Əliyev parkında davam etdirəcək. Festivalda təqdim olunacaq filmlərin bütün seansları ictimaiyyət üçün açıqdır və giriş pulsuzdur.

Nümayişi nəzərdə tutulan filmlərdə həyatımızın ictimai-siyasi, elm, maarif, məhəbbət, gözəllik, humanizm ruhlu mövzularına toxunulmuşdur. Odur ki, hər kəs bu rəngarəng Festivalın maraqlı dəqiqələrini izləməyə dəvət olunur.

# Vacìb tədbìr

Avqustun 5 və 6-da Qəbələ şəhərində "Suların inteqrasiyalı idarə edilməsi iqlim dəyişikliklərinə uyğunlaşdırılmanın aləti kimi" mövzusunda təlim keçirilib.

Tədbir BMT-nin İnkişaf Proqramı (BMTİP) və Fövqəladə Hallar Nazirliyinin "Böyük Qafqaz regionunda zəif dağ icmaları tərəfindən su və daşqınlar üzrə idarəetməyə iqlim dəyişikliyi risklərinin daxil edilməsi" layihəsi çərçivəsində birgə təşkil olunub. Qeyd olunan layihənin əsas məqsədi Azərbaycanda xüsusən də Böyük Qafqazın dağlıq icmalarında su və selin idarəedilməsi sistemlərini təkmilləşdirmək və iqlimlə bağlı daşqın və su basmalarının təsirlərini azaltmaqdır. Toplantıda çıxış edən BMTİP-in Strateji Əməkdaşlıq üzrə müşaviri Məzahir Əfəndiyev suların və selin inteqrasiyalı idarəedilməsinin dövrün iqlim dəyişmələrinə müvafiq qurulmasının bu sahədə müsbət nəticələr əldə etməkdə vacib olduğunu bildirib və keçirilən təlimin ölkə səviyyəsində böyük töhfələr verəcəyini xüsusi qeyd edib. Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin rəisi Baba Azakov qeyd edib ki, hal-hazırda iqlim dəyişikliyi və onun törətdiyi fəsadlar Azərbaycan üçün çox mühüm məsələ hesab olunur. Belə tədbirlərin regionlarda tez-tez və davamlı olaraq keçirilməsi əhalinin bu istiqamətdə maarifləndirilməsinə kömək edəcək. Diqqətə çatdırılıb ki, layihənin əsas məqsədi Azərbaycanda, xüsusən də Böyük Qafqazın dağlıq icmalarında su və selin idarəedilməsi sistemlərini təkmilləşdirmək və iqlimlə bağlı daşqın və su basmalarının təsirlərini azaltmaqdır.





Təlim zamanı iştirakçılar iqlim dəyişikliyi haqqında məlumatlandırılıb və bunun təsirinin azalması istiqamətində ətraflı müzakirələr aparıblar. Təlimdə Fövqəladə Hallar Nazirliyinin Dövlət Su Ehtiyatları Agentliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Meliorasiya və Su Təsərrüfatı Agentliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, "AzərSu" ASC-nin, BMTİP, rayon icra hakimiyyətlərinin nümayəndələri, layihənin beynəlxalq və yerli ekspertləri iştirak ediblər.

Xatırladaq ki, Fövqəladə Hallar Nazirliyi və BMTİP ilə birgə həyata keçirilən adı çəkilən layihənin əsas məqsədi Azərbaycanda, xüsusən də Böyük Qafqazın dağlıq icmalarında su və daşqınların idarəsi sistemlərini təkmilləşdirmək və iqlimlə bağlı daşqın və su basmalarının təsirlərini azaltmaqdır. Layihə adaptasiya ehtiyaclarına cavab su və daşqın idarəedilməsi sistemlərini dəyişməkdə köməklik göstərəcək və iqlim risklərinin idarəetməsini təkmilləşdirəcək, lazımi qurumların, su və daşqının risklərinin azaldılması üçün idarəetmədə qabaqcıl təcrübə tətbiq etmək bacarıqlarını formalaşdıracaq və yerli iqlim dəyişikliklərinin idarəedilməsi təcrübələrini təqdim etməklə ictimaiyyətin daşqın və su basmalara qarşı dözümlülüyünü artıracaqdır.

**Səhifənin materiallarını çapa Qüdrət SƏMƏDOV hazırlamışdır. Fotolar İ. Vəlizadənindir.**